www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-04 (1808) 28 fevral 2025-ci il



## Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib

Rektor, professor Gəray Gəraybəyli: Bu faciənin mahiyyətini gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur

səh. 2

### Universitetlərdə yeni təhsil proqramları hazırlanır

səh. 2

### Ödənişli əsaslarla təhsil alan 6 tələbə dövlət hesabına təhsilə keçirilib

səh. 4

### Tibdə süni intellekt inqilabı

səh. 7



### Urologiya kafedrasının 50 illiyi qeyd olunub

Bu münasibətlə Azərbaycan Endourologiya Cəmiyyətinin II konqresi keçirilib

səh. 2

### 28 fevral Nadir Xəstəliklər Günüdür

*Professor Aytən Məmmədbəyli: Tibb elmindəki irəliləyişlər nadir xəstəliklərin effektiv müalicəsinə ümid verir*

səh. 5

### Özbaşına vitamin qəbulu ağır fəsadlar doğura bilər

*Fəridə Hacıyeva: Hansısa həkim "D vitaminini profilaktika üçün qəbul etmək olar" deyirsə, bunu etməyin*

səh. 4



### Gələcəkdə imtahanlar hibrid formada təşkil oluna bilər

Rektor, professor Gəray Gəraybəyli: Tibb təhsilinin sürətli inkişaf tendensiyası yeni qiymətləndirmə metodlarına ehtiyac yaradıb

səh.3

# Universitetlərdə yeni təhsil proqramları hazırlanır

**Elm və Təhsil Nazirliyində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələri üzrə yeni təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış komissiyanın ilk iclası keçirilib.**



Elm və təhsil nazirinin müavini, komissiyanın sədri İdris İsayevin rəhbərliyi ilə keçirilən iclasda nazirliyin rəsmiləri, ali təhsil müəssisələrinin rəhbərləri və əmək bazarının nümayəndələri iştirak ediblər. İ.İsayev əmək bazarının tələblərinin yeniləndiyini və kadr hazırlığının da bu çağırışlara uyğunlaşmasının vacibliyini diqqətə çatdırıb. Ötən il Nazirlər Kabineti tərəfindən ali təhsilin bakalavriat, magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələri üzrə ixtisasların yeni təsnifatının təsdiq olunduğunu xatırladan İ.İsayev qeyd edib ki, təsnifatda aparılan dəyişikliklər müvafiq olaraq yeni təhsil proqramlarının hazırlanmasını tələb edir. O bildirib ki, proqramlar işəgötürənlərin tələblərinə uyğun olmalıdır. Bu səbəbdən işəgötürənlər də bu prosesdə aktiv iştirak etməlidirlər.

Qeyd edək ki, komissiyanın tərkibində Təhsil ixtisasları qrupu, Humanitar və sosial ixtisaslar qrupu, Mədəniyyət ixtisasları qrupu, İqtisadiyyat və idarəetmə ixtisasları qrupu, Təbiət ixtisasları qrupu, Texniki və texnoloji və Xüsusi təyinatlı ixtisaslar qrupları, Kənd təsərrüfatı ixtisasları qrupu, İdman və xidmət ixtisasları qrupu, Əsas (baza ali) tibb təhsili səviyyəsi və səhiyyə ixtisasları qrupu olmaqla 9 işçi qrupu yaradılıb. İşçi qruplarına rəhbərlik ali təhsil müəssisəsinin rəhbəri və əmək bazarının nümayəndə olmaqla həmsədrlik mexanizmi əsasında təşkil edilib.

İclas zamanı nazir müavini hər bir işçi qrupun üzərinə düşən öhdəlikləri diqqətə çatdırıb.

Daha sonra təqdimatla çıxış edən nazirliyin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman təhsil proqramları ilə bağlı cari vəziyyət və qeydə alınan problemlər barədə məlumat verib. T.Süleyman bildirib ki, yeni təhsil proqramlarının tərtib edilməsi ilə məzunların bilik və bacarıqlarının müasir əmək bazarının tələblərinə uyğunluğunun təmin edilməsi gözlənilir.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin də iştirak etdiyi iclasda bildirilib ki, həm ali təhsil müəssisələri, həm də əmək bazarının nümayəndələrinin təmsil olunduğu işçi qrupları ilkin olaraq magistratura səviyyəsində ixtisaslar üzrə ixtisaslaşmaların yekun siyahısını hazırlayıb nazirliyə təqdim etməli, hər bir ixtisas (ixtisaslaşma) üzrə müvafiq çərçivə sənədinə uyğun təhsil proqramlarının hazırlanmasını təmin etməlidirlər.

# Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Bu faciənin mahiyyətini gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur

**Fevralın 26-da Azərbaycan Tibb Universitetində Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Toplantı iştirakçıları əvvəlcə faciə qurbanlarının və ərazi bütövlüyümüz, suverenliyimiz uğrunda canından keçmiş bütün şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.**



Tədbiri açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli Xocalı soyqırımını dünya tarixində ən qəddar və amansız terror hadisələrindən biri kimi qiymətləndirib: “Bu gün biz Azərbaycan xalqının faciələrindən birini anmağa yığışmışıq. Ölkəmizin hər yerində olduğu kimi, universitetimizdə də Xocalı faciəsi xalqımızın hüzn günü kimi qeyd edilir. Yaşlı nəsil yaxın tariximizdə baş vermiş bütün hadisələrin canlı şahididir. Bu faciə də onların yaddaşından heç zaman silinməyəcək. Bununla yanaşı, bizim borcumuzdur ki, tariximizin bu qanlı səhifələrini müxtəlif təbliğat vasitələrindən istifadə etməklə gənc nəslin qan yaddaşına həkk edək. Bu faciənin mahiyyətini gənclərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur”.




Rektor üzünü tələbələrə tutaraq davam edib: “Təbii ki, biz sizin hər birinizi gələcəkdə peşəkar həkimlər olaraq görmək istəyirik. Amma bundan da vacibi odur ki, sizlər ilk növbədə yaxşı vətəndaş olmalısınız. Xocalı soyqırımı, digər faciələrimizlə bağlı kitablar yazmaq, filmlər çəkmək kifayət deyil. Gələcəkdə bəziləriniz mütəxəssis kimi xarici ölkələrdə çalışacaqsınız. O zaman tariximizi, yaşadığımız faciələri həmin ölkələrdə də insanlara çatdırmalı, Azərbaycan həqiqətlərini təbliğ etməlisiniz. Tədbirimizdə Qazaxıstandan hörmətli professor iştirak edir. Bizim az əvvəl onunla görüşümüzdə Xocalı soyqırımından da söhbət düşdü və hiss etdim ki, qardaş ölkədən gəlmiş alim bu barədə heç bir məlumata malik deyil. Bu onların deyil, bizim günahımızdır və gələcəkdə bu səhvləri nəzərə almalıyıq. Bir daha demək istəyirəm ki, sizlər qan yaddaşımız olan Xocalı soyqırımını heç vaxt unutmamalı və əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün əlinizdən gələni etməlisiniz”.

Professor G.Gəraybəyli bildirib ki, Xocalı soyqırımına tarixi qiymətin verilməsi məhz Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra mümkün olub: “33 il əvvəl fevralın 25-dən 26-na keçən gecə erməni faşistləri ağır artilleriya ilə müharibə qanunlarına zidd olaraq silahsız, əliyalın sakinləri hədəfə almışdı. Bir sözlə, Xocalıda baş verənlər dinc əhaliyə qarşı genosid aktı idi. Ümummilli Lider bu amansız kütləvi qırğının tarixi-siyasi mahiyyətini açaraq, Xocalı faciəsini erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi adlandırıb. Tariximizə nəzər yetirdikdə görürük ki, Azərbaycan xalqının yaşadığı faciələri, soyqırımları, qətliamları bəlkə də dünyada heç bir xalq yaşamayıb. Bütövlükdə xalqımıza qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində az-az rast gəlinən bir vəhşilik aktıdır. Xocalı soyqırımı, əslində bütün bəşəriyyətə qarşı olan cinayətdir. Bu faciədə düşmənlərimizin əsas məqsədi xalqımızın gözünü qorxutmaq, bizi mənən sındırmaq idi. Lakin zaman yetişdi və tarixdə görünməmiş bir fədakarlıqla xalqımız əzəli torpaqlarını geri qaytardı. Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı. Cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük müharibədə əldə etdiyi tarixi Zəfər nəticəsində nəinki ərazi bütövlüyümüz bərpa edildi, elə cə də başımıza gətirilən faciələrin qisası alındı”.

Tədbirdə çıxış edən İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, Xocalı sakini Mübariz Allahverdiyev soyqırımı zamanı Xocalı sakinlərinin başına gətirilənlərdən danışıb, əliyalın insanların göstərdiyi şücaətlərdən söz açıb. Professor bildirib ki, o özü Xocalının vətənpərvər, qürurlu, yenilməz övladlarından bəhs edən “Xocalı harayı” adlı kitab yazıb, amma hələ də yazılmamış bir çox məqamlar var. O vurğulayıb ki, qələmə aldığı kitabda el-obasının qeyrətini çəkən qəhrəman insanların öz doğma torpaqları uğrunda necə can verdiyi, başdan-ayağa silahlanmış azğın quldurlara qarşı əliyalın, fədakarcasına üzbəüz vuruşduqları əsaslı faktlarla göstərilib. M.Allahverdiyev bir xocalılı kimi bu faciəni daim qəlbində hiss etdiyindən, həmin günlərdə həmyerlilərinin ölümlə baş-başa qalmasını, qətliamdan qurtulanların sonradan olduqca məşəqqətli həyat yaşamasını ürək ağrısı ilə təsvir etməyə çalışdığını söyləyib: “Təəssüf ki, dünya bu cür kütləvi insan qırğınına susmaqla münasibətini bildirdi. Sanki bu faciə heç olmamışdı”.

M.Allahverdiyev vurğulayıb ki, “Xocalı harayı” kitabında dünya ictimaiyyətini bu ədalətsizliyə göz yummamağa, haqqı əzilən, torpaqları işğal olunan, insanları qətl edilən, mənəviyyatı tapdanan, bir sözlə, ölümə məhkum edilən bir ölkənin haqq səsini eşitməyə çağırıb.

Tədbiri yekunlaşdıran rektor, professor G.Gəraybəyli millətimizin tarixində baş vermiş faciələrin ildönümlərinin qeyd edilməsində universitet tələbələrinin aktivliyni təqdirəlayiq hal kimi qiymətləndirib və belə tədbirlərin gənclərə yüksək vətənpərvərlik ruhu aşılamaq baxımından əhəmiyyətini vurğulayıb.

**M.ƏLƏKBƏRLİ**

# Urologiya kafedrasının 50 illiyi qeyd olunub

## Bu münasibətlə Azərbaycan Endourologiya Cəmiyyətinin II konqresi keçirilib

**Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının 50 illiyinə həsr olunmuş Azərbaycan Endourologiya Cəmiyyətinin II Konqresi keçirilib. Türk Uroloji Dərnəyi ilə birlikdə təşkil olunan toplantıda müxtəlif ölkələrdən gəlmiş mütəxəssislər endourologiyanın müasir hədəfləri, bir sıra xəstəliklərin müalicəsində tətbiq edilən yeni yanaşmaları müzakirə ediblər.**

Konqresin rəsmi açılış mərasimində çıxış edən səhiyyə naziri Teymur Musayev Azərbaycanda səhiyyə sahəsində əldə olunan uğurlardan danışıb. O, son 20 ildə səhiyyəyə ayrılan büdcə vəsaitinin 30 dəfə artırıldığı, 700-dən çox səhiyyə müəssisəsində təmir-tikinti işləri aparıldığını qeyd edib. Nazir 2021-ci ilin aprelindən bütün respublika ərazisində tətbiq olunan icbari tibbi sığorta sistemində uroloji əməliyyatların da yer aldığını bildirib. Hələ sovet ittifaqı dövründən Azərbaycan təbabətində urologiya sahəsinin yüksək inkişaf etdiyini vurğulayan Teymur Musayev, bu prosesdə ATU-nun 50 yaşını qeyd edən urologiya kafedrasının xüsusi yer tutduğunu vurğulayıb və yubiley münasibətilə universitet kollektivinə təbriklərini çatdırıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli 1975-ci ildə M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının uroloji şöbəsinin bazasında təşkil edilən Urologiya kafedrasının tarixi haqqında məlumat verib. Qeyd edib ki, respublikada urologiya elminin inkişafında, bu sahədə dünya şöhrətli alimlərin və peşəkar həkimlərin yetişməsində kafedranın böyük rolu olub. Hazırda kafedra əməkdaşları tərəfindən Azərbaycanda urologiyanın bütün sahələri üzrə ən ağır və çeşidli əməliyyatlar aparılır, kafedranın professor-müəllim heyəti bir sıra ölkələrin və xüsusilə Türkiyənin tibbi qurumları ilə əməkdaşlıq edirlər. 2014-cü ildən etibarən Urologiya kafedrasının əsas bazası ATU-nun Tədris Cərrahiyyə Klinikasında yerləşir. Rektor 2023-cü ildə ATU-nun əməkdaşları tərəfindən təsis olunan Azərbaycan Endourologiya Cəmiyyətinin qısa müddət ərzində xeyli uğurlara imza atdığını, bir sıra beynəlxalq konfranslar, seminar və praktiki kurslar keçirdiyini bildirib.

Azərbaycan Endourologiya Cəmiyyətinin sədri, professor Rauf Nağıyev Urologiya kafedrasının məqsədyönlü və şərəfli yol keçdiyini, ölkəmizin səhiyyə sistemində və ATU-nun çoxşaxəli fəaliyyətində aktiv iştirak etdiyini qeyd edib. Akademik Südeyif İmamverdiyev uzun illər ərzində rəhbərlik etdiyi kafedranın tarixi və nailiyyətləri haqqında ətraflı məlumat verib.



Açılış mərasiminin bədii hissəsində ATU-nun “Çinar” rəqs və “Şəfa” xalq çalğı alətləri ansamblların çıxışları olub.

Daha sonra Böyük Britaniyadan professor Bhaskar K. Somani, Almaniyadan professor Thomas Knoll, Yunanıstandan Athanasios Papatsoris, Türkiyədən Mustafa Kamal Atilla, professor Abdullah Demirtaş, Mutlu Ateş, Qazaxıstandan Ali Talışinski və digər mütəxəssislərin rəhbərliyi ilə panel sessiyaları keçirilib. İki gün ərzində prostat vəzi xəstəliklərinin endoskopik müalicəsi, robotik və laparoskopik urologiyada yeniliklər, urolitiazisdə müasir yanaşmalar və digər mövzular üzrə məruzələr dinlənilib, müzakirələr aparılıb. Qeyd edək ki, konqresin ilk günündə ATU-nun Tədris Cərrahiyyə Klinikasında Holep kursu keçirilib və canlı əməliyyatlar nümayiş etdirilib.

# Gələcəkdə imtahanlar hibrid formada təşkil oluna bilər

## Rektor, professor Gəray Gəraybəyli: Tibb təhsilinin sürətli inkişaf tendensiyası yeni qiymətləndirmə metodlarına ehtiyac yaradıb

**Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının geniş tərkibdə növbəti iclası fevralın 27-də keçirilib. İclası rektor, professor Gəray Gəraybəyli açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**

Əvvəlcə "Azərbaycan Tibb Universitetində 2024/2025-ci tədris ilinin qış imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin qarşısında duran vəzifələr" barədə Tədris işləri üzrə prorektor, professor Nazim Pənahovun hesabat məruzəsi dinlənilib.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin hər zaman səhiyyənin və tibb təhsilinin strateji əhəmiyyətini vurğuladığını, o cümlədən Azərbaycan Tibb Universitetini ölkəmizin tibb sahəsində aparıcı elm ocaqlarından biri kimi dəyərləndirdiyini söyləyən prorektor, bu siyasətin Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bu gün də uğurla davam etdirildiyini deyib. Bildirib ki, biz də bu diqqət və qayğıya rəğmən, üzərimizə düşən məsuliyyəti dərk edir, universitetimizdə tədrisin keyfiyyətini daha da yüksəltməyə çalışırıq. Məruzəçi tələbələrimizin öz biliklərini nümayiş etdirməklə yanaşı, həm də zəhmətləri və əzmkarlıqları ilə gələcəyin peşəkar həkimləri, alimləri və tibb mütəxəssisləri olmağa doğru inamla irəlilədiklərini sübut etdiklərini vurğulayaraq, diqqəti daha çox payız və yaz semestrlərinin imtahan sessiyalarının nəticələrinə yönəldib: "Universitetimizdə oxuyan 7462 tələbədən 7308 nəfəri bu ilki imtahanlarda iştirak edib. Onlardan 6279 tələbə imtahan sessiyasını müvəffəqiyyətlə başa vurub. O cümlədən 1071 nəfər (14,65%) sessiyanı "əla", 2911 nəfər (39,82%) "əla" və "yaxşı", 2297 nəfər (31,43%) qarışıq qiymətlərlə bitirib. Sessiyanın nəticələrinə görə, 1029 nəfər (14,08%) tələbənin akademik borcu qalıb ki, bunlardan da 481 nəfərin yalnız 1 fəndən, 311 nəfərin 2 fəndən, 230 nəfərin 3 fəndən akademik borcu var. ATU üzrə 54,48% mənimsəmə göstəricisi olduğu halda, əczaçılıq (28,83%) və stomatologiya (30,88%) fakültələrində bu göstəricilərin universitet üzrə orta göstəricidən çox aşağı olması diqqəti çəkir".

Statistik məlumatların doğruluğu və etibarlılığının vacibliyinə toxunan N.Pənahov slaydlar vasitəsi ilə I kurs tələbələrinin finalda toplaya biləcəkləri mümkün 50 bal üzərindən imtahan nəticələrinin analitik təhlilini diqqətə çatdırıb: "Öncə onu qeyd etmək istərdim ki, cari tədris ilində ilk dəfə olaraq, semestrdə aralıq imtahanları "məxsusi həftə"də keçirildi və rektoryanı şuranın qərarına əsasən, bu semestrdə əvvəlki illərdən fərqli olaraq, imtahan öncəsi I kurs tələbələrinə nümunəvi testlər (PDF-lər) verilmədi".

Məruzədə I kurs tələbələrinin final imtahanında topladığı ballar da öz əksini tapıb. Prorektor qeyd edib ki, bu semestr müxtəlif fənlərdən 0-10; 11-20; 21-30 aralığında ballar alan tələbələrin sayı ötən il bu aralıqlarda bal alan tələbələrin sayı ilə müqayisədə nəzərəçarpacaq dərəcədə artıq, 31-40; 41-50 aralığında bal alan tələbələrin sayı isə ötən il eyni aralıqlarda bal alan tələbələrin sayı ilə müqayisədə nəzərəçarpacaq dərəcədə aşağıdır: "Məsələnin əsas məğzi ondan ibarətdir ki, biz doğru yolu tutmuşuq, bu dataların böyük əksəriyyəti real vəziyyəti əks etdirir və tələbənin testi sadəcə əzbərləmək yolundan kitab oxumağa qayıtmasına xidmət edir. Başqa sözlə, I kurs tələbələrinin finalda bu fənlərdən aldığı qiymətlər normaldır, ilk slaydlarda göstərdiyim kimi, I kursda ən aşağı kəmiyyət göstəricisinin (21,91%) olması real rəqəmlərə əsaslandığı üçün obyektivliyi əks etdirir və bizim qüsurumuz yox, uğurumuz sayılmalıdır".

Orta kurslarda, yəni II, III və IV kurslarda qış imtahan sessiyasına dair bəzi nəticələr haqda məlumatları da təqdim edən prorektor, yekun qiymət göstəricilərinin ötən ildəkinə bənzər şəkildə qalmasını diqqətə çatdıraraq vurğulayıb ki, sadalanan fənlərdən keçirilən imtahanların nəticələrini qənaətbəxş hesab edə bilərik.

N.Pənahov istənilən sahənin fəaliyyətinin düzgün təşkilinin ən vacib meyarlarından sayılan nizam-intizam məsələlərinə ciddi riayət olunmasının zəruriliyinə diqqət çəkərək, imtahan öncəsi dekanlıqların, İmtahan Mərkəzinin, nəzarətçilərin iştirakı ilə iclas keçirildiyini və qaldırılan problemlərin həlli istiqamətində lazımi addımlar atıldığını xatırladıb: "Tərəfimizdən fərqli günlərdə əvvəlcədən bildirməklə, eləcə də əvvəlcədən xəbər vermədən imtahan zallarına reydlər keçirilib, məsələlərin yerindəcə həlli üçün müvafiq göstərişlər verilib. Eləcə də imtahan zallarında quraşdırılan kameralar vasitəsilə günün müxtəlif vaxtlarında şəxsən mənim tərəfimdən imtahan zallarına nəzarət aparılıb. Nizam-intizam qaydalarının pozulması halları İmtahan Mərkəzi tərəfindən aktlaşdırılaraq, rektora təqdimat göndərilib. Aşkar olunan nizam-intizam pozuntularını əks etdirən videogörüntülərə tərəfimizdən təkrar baxış keçirildikdən sonra faktlar təsdiqini tapdığı üçün qaydaları pozan tələbələrin imtahan nəticələri sıfırlanıb".



Dövlət İmtahan Mərkəzi tərəfindən aparılan qəbul imtahanları zamanı IV qrup üzrə yüksək bal toplayanların böyük əksəriyyətinin, yəni qrup üzrə bütün Prezident təqaüdçülərinin bizim universitetə üstünlük verdiklərini söyləyən prorektor bildirib ki, son 6 dərs ilində hər il 23-25 nəfər olmaqla 146 Prezident təqaüdçüsü təhsil almaq üçün bizim universiteti seçib. Lakin həmin tələbələrin universitetdəki imtahan nəticələri heç də qənaətbəxş deyil: "Belə ki, bu ilki 25 nəfər Prezident təqaüdçüsündən yalnız 11 nəfəri bu adı qorumağa müvəffəq olub. Beləliklə, 6 il ərzində universitetə daxil olan 146 nəfər Prezident təqaüdçüsündən yalnız 33 nəfəri bu adı saxlaya bilib. Qalan tələbələr müxtəlif fənlərdən "A" qiyməti ala bilmədiklərinə görə Prezident təqaüdçüsü adını itiriblər. Əslində bu fakt Sabir müəllimin (Sabir Əliyev, Tədris və müalicə işləri üzrə keçmiş prorektor – red.) Elmi Şuradakı bütün hesabatlarında hər dəfə vurğulanırdı. Hər biri IV qrupda təhsil almağı seçmiş, tam orta təhsili əla qiymətlərlə başa vurmuş və çətin test sınaqlarından ən yüksək nəticələri əldə etmiş bu tələbələr universitetimiz üçün bir fəxarət olmalıdır. Biz gələcəkdə belə gənclərimizin potensialını tibb elminin inkişafına, yüksək ixtisaslı həkim və əczaçı kadrların hazırlanmasına yönəltməliyik".

Gələn ildən Prezident təqaüdçülərinin, həmçinin qəbul zamanı ən yüksək bal toplayan tələbələrin xüsusi bir qrupda cəmləşdirilməsini təklif edən və imtahan nəticələri üzrə verilən apellyasiyalar barədə fikirlərini şura üzvləri ilə bölüşən prorektor, universitetimizin akademik standartlarını daha da yüksəltmək baxımından, növbəti yaz semestrində qarşımızda bir sıra mühüm vəzifələrin dayandığını vurğulayıb: "Bunlardan ən önəmlisi tədris prosesində innovativ və tələbəyönlü yanaşmaların daha geniş tətbiq olunmasıdır. Biliklərin sadəcə ötürülməsi kifayət deyil, biz tələbələrimizin tənqidi düşünmə, problemləri analiz etmə və praktiki bacarıqlarını inkişaf etdirmə qabiliyyətini gücləndirməliyik".

Çıxışının sonunda rektorun tapşırığı ilə təkcə tibb təhsilində təşkili mümkün olan 50 fərqli imtahan forması barədə məruzə hazırladığını və məruzəsinin yeni yaradılan Tədris Metodik Şurada geniş müzakirəsinin planlaşdırıldığını deyən prorektor bildirib ki, beynəlxalq təcrübədən faydalanmaq, xarici universitetlərlə əməkdaşlığı genişləndirmək və tələbələrimizin qlobal tibb ictimaiyyətinə inteqrasiyasını təmin etmək də prioritetlərimiz sırasındadır. O, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün kollektivin hər bir üzvü ilə birlikdə çalışaraq Azərbaycan Tibb Universitetini daha da irəli aparacaqlarına, onun adını beynəlxalq elm və təhsil mühitində daha da yüksəldəcəklərinə əminliyini ifadə edib.

Bundan sonra çıxış edənlər hesabat məruzəsində toxunulan məsələlərlə bağlı fikirlərini bölüşüblər. Apellyasiya Komissiyasının sədri, professor Gülnarə Əzizova aralıq və final imtahanları ilə bağlı müraciətlərə baxılarkən həm ekspertlərin rəyi, həm də tələbələrin iddialarının hərtərəfli təhlil edildiyini bildirib. 268 ekspertlə işlədiklərini deyən komissiya sədrinin sözlərinə görə, nəticələri qiymətləndirərkən iddianın və apellyasiyanın sayı deyil, qüsurlu testin sayı əsas götürülməlidir. O, ekspertlərə bəzən kafedra müdirləri tərəfindən təzyiq göstərilməsindən narahatlığını dilə gətirib. Eyni zamanda aralıq imtahanları ilə final imtahanlarındakı apellyasiyaların fərqli səbəblərindən danışaraq qeyd edib ki, final imtahanlarında müraciətlərin əsas səbəbi çoxseçimli suallarla bağlıdır.




Yeni tədris ilində həyata keçirilən islahatların imtahan prosesinə müsbət təsirindən söz açan Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov narazılıq doğuran bəzi məqamlara da toxunub. Bildirib ki, əvvəllər qüsurlu testlər daha çox cərrahi xəstəliklər və daxili xəstəliklər fənnindən olurdu. Artıq keçən ildən bu problem öz həllini tapıb. Hər kafedranın özünün tədris etdiyi proqram və fənn var. Ona görə də bir kafedranın günahını digər kafedranın üzərinə atmaq mümkün deyil. Nazim müəllimin rəhbərliyi ilə yanvar ayının sonunda tədris işləri üzrə müavinlərlə keçirilən görüş zamanı 2-ci semestrdən məsələlərin hansı formatda həll olunmasına da aydınlıq gətirildiyini söyləyən departamentin müdiri, Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsnifatı təsdiq olunmuş ixtisaslar üzrə əmək bazarının tələblərinə cavab verən yeni standartların hazırlanmasının vacibliyini də diqqətə çatdırıb.

İnformasiya Texnologiyaları Departamentinin rəhbəri Rəmzi Əliyev universitetin elektron sistemində hər semestr haqqında bütün məlumatların yerləşdirildiyini bildirərək qeyd edib ki, bu məlumatlardan düzgün yararlanmaqla, görülən işlərin müsbət və mənfi tərəflərinə dair doğru qərar vermək mümkündür. O, rəhbərlik etdiyi qurumun İmtahan Mərkəzi, Apellyasiya Komissiyası və kafedralarla qarşılıqlı fəaliyyətindən söz açaraq mövcud nöqsanların aradan qaldırılmasına dair təkliflərini irəli sürüb.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibətini açıqlayan rektor, professor Gəray Gəraybəyli müzakirəyə çıxarılın mövzunun hər zaman aktual olduğunu xatırladıb: "Universitetimizdə imtahanların illər öncə necə keçdiyi burada əyləşənlərin böyük əksəriyyətinin yaxşı yadındadır. Testlə imtahana keçidin hansı zərurətdən yarandığını da yaxşı bilirsiz. O vaxt universitet rəhbərliyinin ənənəvi imtahan üsulundan daha obyektiv, insan faktorunun daha az təsir göstərdiyi bir üsula keçməsi çox doğru addım idi. Artıq neçə illərdir ki, tələbələrin biliyinin qiymətləndirilməsi testlə aparılır. Ancaq bu gün tibb təhsilinin sürətli inkişaf tendensiyası göz qabağındadır. Bu baxımdan yeni qiymətləndirmə metodlarına tələbat yaranıb. Həm də nəzərə almaq lazımdır ki, bəzən hansısa fəndən testlər tələbələrin əlinə keçir. Hansı kafedralar testləri vaxtlı-vaxtında dəyişirsə, belə problemlər yaranmır. Təəssüf ki, bəzi kafedralarda testlər yenilənmir. Bu məsələ ilə daha ciddi məşğul olmaqla bərabər, sırf test üsulu ilə imtahan aparmağın indiki tələblərə uyğun olmadığının fərqindəyik və daha təkmil imtahan üsulları haqqında düşünürük".

Rektor bu istiqamətdə mühüm addımlar atıldığını, beynəlxalq təcrübəni, reytinq agentliklərinin tələblərini nəzərə almaqla, tibb sahəsi üzrə dünyada mövcud olan 50 qiymətləndirmə metodundan bizim reallığa uyğun gələninin tətbiq ediləcəyini vurğulayıb: "Ancaq bu o demək deyil ki, test üsulundan tamamilə imtina ediləcək. Belə demək mümkünsə, gələcəkdə imtahanlar hibrid formada aparılacaq. Bu tədris ilinin sonunda İctimai səhiyyə, Stomatologiya və Əczaçılıq fakültələrinin buraxılış qruplarında yeni metodlardan istifadə olunacaq. Bacarıqlara və kompetensiyalara üstünlük veriləcək və əzbərçilik aradan qalxacaq".

Nümunəvi testlərin tələbələrə verilməməsinin onlarda böyük həyəcan yaratdığını söyləyən universitetin rəhbəri xatırladıb ki, imtahanlardan qeyri-müvəffəq qiymət alanların əksəriyyəti xarici tələbələrdir: "Səbəb isə onların Azərbaycan dilini çox zəif bilməsidir. Bu nöqteyi-nəzərdən Azərbaycan dili kafedrasının üzərinə böyük məsuliyyət düşür. Keçən il hazırlıq bölməsində 450 saat dərs keçən tələbələrin 6 ay, bir il sonra Azərbaycan dilində yazılan cümlənin mahiyyətini anlamaması təəssüf doğurur".

İmtahan Mərkəzində də bəzi funksiyaların təkmilləşdirilməsi, ekspertlərin seçilməsi və elektron sənəd dövriyyəsi ilə bağlı tələblərini və tövsiyələrini diqqətə çatdıran G.Gəraybəyli yekun nitqində Elm və Təhsil Nazirliyində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələri üzrə yeni təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış komissiyanın ilk iclası haqqında da şura üzvlərini məlumatlandırıb.

İmtahan Mərkəzinin İnformasiya Texnologiyaları Departamentinin tərkibinə şöbə olaraq salınmasını təsdiqləyən Elmi Şura, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən göndərilən, Milli Onkologiya Mərkəzi tərəfindən hazırlanmış metodik tövsiyənin nəşrinə də razılıq verməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Ödənişli əsaslarla təhsil alan 6 tələbə dövlət hesabına təhsilə keçirilib

**Rektor, professor Gəray Gəraybəyli yüksək təhsil göstəriciləri ilə bu imkanı qazanan tələbələri qəbul edib**



**Son illər Azərbaycan Tibb Universitetində müxtəlif kurslarda ödənişli əsaslarla təhsil alan tələbələrin bir qisminin dövlət hesabına təhsil almasına imkan yaradılır. Bu il də akademik göstəriciləri yüksək olan 6 tələbə ödənişli əsaslarla təhsildən dövlət sifarişi əsasında təhsil formasına keçirilib.**

Universitetin rektoru, professor Gəray Gəraybəyli bu tədris ilində dövlət sifarişi üzrə təhsil şansı qazanan tələbələrlə görüşüb. Görüş zamanı professor G.Gəraybəyli tələbələri təbrik edib, dövlət sifarişi əsasında təhsilin verdiyi üstünlüklərdən danışıb, onlara daha böyük uğurlar arzulayıb.

Qeyd edək ki, il ərzində dövlət hesabına plan yerləri boşaldıqca, ödənişli təhsil alan və akademik göstəriciləri yüksək olan tələbələrin ora keçidinə şərait yaradılır. Bu zaman təhsil illərində tələbələrin topladığı ballar nəzərə alınır.

Görüşdə ATU-nun Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov və dekanlar iştirak ediblər.

**Cənubi Qazaxıstan Tibb Akademiyasının professoru Kulpan Orınbasarova Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb.**

# ATU-nun rektoru qazaxıstanlı professorla görüşüb



Görüş zamanı rektor G.Gəraybəyli Azərbaycanda səhiyyənin inkişafi istiqamətində cənab Prezident İlham Əliyevin rəhbərliyi altında görülən işlər, tibb təhsili sahəsində aparılan köklü islahatlar barədə məlumat verib.

Rektor ATU-nun fəaliyyətində prioritet istiqamətlərdən biri olan beynəlxalq əlaqələrin genişlənməsi ilə bağlı son illər həyata keçirilən tədbirlər, əsası qoyulan uğurlu əməkdaşlıqlar haqqında da danışıb. Bu əlaqələr sırasında qonşu ölkələrin universitet və elm mərkəzləri ilə birgə həyata keçirilən mübadilə proqramları və ortaq layihələrin xüsusi önəm daşıdığını bildirib.

Cənubi Qazaxıstan Tibb Akademiyasının Dərman texnologiyası və farmakoqnoziya kafedrasının professoru K.Orınbasarova təmsil etdiyi təhsil ocağı haqqında geniş məlumat verib. O, akademiyada tədris olunan proqramla yanaşı, ölkəsindəki tibb təhsili sistemindən də söz açıb, ATU ilə əməkdaşlığın uğurlu olacağına inandığını bildirib.

Qurumlar arasında gələcək əməkdaşlığın istiqamətləri və mümkün ortaq layihələr haqqında müzakirələrin aparıldığı görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Farmakoqnoziya kafedrasının dosenti Nərgiz Məmmədova və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak edib.

# ATU-nun prorektoru beynəlxalq simpoziumda iştirak edib

**13-15 fevral tarixlərində İtaliyanın Florensiya şəhərində “Soft Tissue Management, the key to improve your daily practice” (“Yumşaq toxumaların idarə edilməsi, gündəlik təcrübəni təkmilləşdirməyin açarı”) mövzusunda MDS & Friends qurumunun təşkilatçılığı ilə simpozium keçirilib.**



Azərbaycan Tibb Universitetini bu nüfuzlu tədbirdə Tərbiyə işləri üzrə prorektor, ixtisasca stomatoloq olan dosent Mahir Səfərov təmsil edib.

Simpoziumda bir sıra görkəmli ekspertlər stomatologiya sahəsində aktual mövzular üzrə çıxış edərək öz təcrübələrini bölüşüblər. Tədbir çərçivəsində implant, stomatoloji alətlərin nümayiş etdirildiyi böyük sərgi təşkil olunub.

# Səhiyyə Nazirliyində rezidentlərimizlə görüş keçirilib

**Səhiyyə Nazirliyində Azərbaycan Tibb Universitetinin rezidentləri ilə görüş baş tutub. Tədbirdə Gigiyena və epidemiologiya ixtisası üzrə təhsil alan rezidentləri maraqlandıran məsələlər müzakirə olunub.**



Görüşdə Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova, ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva iştirak ediblər.

Onlar Gigiyena və epidemiologiya ixtisası üzrə təhsilin gələcək perspektivləri, bu sahədəki layihələr, məzunların işlə təminatı sahəsində irəli sürülən tələblər, dövlət qulluğuna qəbul və vakansiyalar barədə məlumat verib, həmçinin tələbələrin suallarını cavablandırıblar.

**Hazırda orqanizmi vitaminlər, minerallar və digər qidalandırıcı elementlərlə təmin etmək üçün yaradılmış əlavələr, polivitaminlərdən cəmiyyətdə geniş istifadə edilir. Hər kəsin də bir arqumenti var: vitamindir də, nə ziyanı var ki? Bəs doğurdanmı, vitamini necə gəldi qəbul etmək olar? İnsanların bu yanaşması düzgündürmü?**

# Özbaşına vitamin qəbulu ağır fəsadlar doğura bilər

## Fəridə Hacıyeva: Hansısa həkim “D vitaminini profilaktika üçün qəbul etmək olar” deyirsə, bunu etməyin

Məsələyə aydınlıq gətirmək üçün Azərbaycan Tibb Universitetinin I Daxili xəstəliklər kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının Müalicə işləri üzrə direktor müavini Fəridə Hacıyevaya müraciət etdik.

Həkim-terapevt son illər hər hansı bir səbəbdən vitamin qəbul etməyin dəbə çevrilməsindən narahatlığını dilə gətirdi: “Soyuq dəyib - vitamin iç. İşdə əsəblərin tab gətirmir - vitamin çatışmazlığındandır. Saç tökülür - mütləq vitamin lazımdır... Əksəriyyət belə düşünür. Halbuki onların nəzarətsiz qəbulu hətta onkoloji xəstəliklərin inkişafına gətirib çıxara bilər. Çox az adam nəzərə alır ki, vitaminlər də dərmandır.

Əgər insanın xroniki xəstəliyi, həmçinin psixoemosional və ya fiziki gərginlik, stress, iqlim dəyişiklikləri, hamiləlik və ya sürətli böyümə kimi xüsusi vəziyyətləri yoxdursa, o zaman vitamin çatışmazlığı da olmur. Əgər insan müxtəlif ərzaqlarla qidalanırsa, lazımi vitaminlərin əksəriyyətini almış olur.

Təəssüf ki, bəzi insanlar vitaminləri hətta meqa-dozalarla qəbul edirlər: xüsusilə C, D, B12, A vitaminlərini. Onlara elə gəlir ki, bu çox faydalıdır. Amma hər şeyin artıq miqdarı zərərlidir. Siz orqanizminizin



vəziyyətini, vitamin çatışmazlığı olub-olmadığını bilmirsiniz. Üstəlik, bütün vitaminlər, mikroelementlər və üzvi turşular bir-biri ilə qarşılıqlı əlaqədədir”.

Vitaminlərin normadan artıq qəbulunun bir sıra xoşagəlməz fəsadlar törədə biləcəyini deyən F.Hacıyeva bu barədə ətraflı məlumat verdi: “Vitaminlərin həddindən artıq qəbulu adi allergik reaksiyalardan başqa, daha ciddi xəstəliklərin yaranmasına da səbəb ola bilər. Məsələn, C vitamininin həddindən artıq qəbulu böyrək daşlarının yaranmasına gətirib çıxara bilər. D vitamininin çoxluğu isə kalsiumun böyrəklərdə, ürəkdə və damar divarlarında yığılmasına, nəticədə osteoporozla nəticələnər. A vitamini xüsusilə təhlükəlidir. Onun həddindən artıq qəbulu onkoloji xəstəliklər riskini artırır. Hamilə qadınlarda isə bu vitaminin çoxluğu dölün inkişafında anomaliyalara səbəb ola bilər”.

Həkim-terapevt xoşagəlməz hallarla üzləşməmək üçün məsləhətlərini də verdi: “Ən doğru addım – ilk növbədə analiz verməkdir. Əgər müəyyən simptomlarınız varsa, həkimlə məsləhətləşin və lazım olan vitaminlər üçün qan testi verin. Xüsusilə D vitamini böyük dozada analizsiz qəbul edilə bilməz. Əgər hansısa həkim sizə “D vitamini çatışmazlığı hər yerdə var, profilaktika üçün qəbul edin” deyirsə, bunu etməyin. Vitaminləri mütəmadi olaraq qəbul etmək sağlamlıq üçün təhlükəlidir. Mümkün qədər balanslı qidalanmağa, bütün lazımi vitamin və mikroelementləri təbii qidalardan almağa çalışın”.

F.Hacıyevanın sözlərinə görə, vitaminləri kurs şəklində hamiləlik dövründə, uşaqlarda sürətli böyümə, xəstəlikdən sonrakı bərpa, yüksək fiziki və ya psixi yüklənmə, pəhriz saxlayarkən və bəzi xroniki xəstəliklər zamanı qəbul etmək olar.

**Qabil ABDULLAYEV**

# Stomatologiya fakültəsi beynəlxalq konfransda təmsil olunub

**Stomatologiya fakültəsinin tələbə, rezident və müəllimləri “Endodontik müalicənin müasir üsulları” adlı onlayn beynəlxalq konfransda iştirak ediblər.**

Konfransda mövzu ilə əlaqədar xarici professor və müəllimlərin mühazirələri dinlənilib. Daha sonra plenar sessiyalarda tələbələr müxtəlif istiqamətləri əhatə edən elmi işlərlə bağlı çıxış ediblər.

Stomatologiya fakültəsinin 1-ci kurs rezidenti Zivər İbrahimli “Temporomandibular oynaq disfunksiyası olan pasiyentlərdə endodontik müalicə problemi" (klinik hadisənin təsviri) mövzusunda çıxış edib. Dosent Elmira Əliyevanın elmi rəhbərliyi altında hazırlanmış araşdırmanın təqdimatı iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.



**Səhiyyə Nazirliyinin verdiyi məlumata görə, nazirliyin tabeliyindəki Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə Kliniki Tibbi Mərkəzdə müalicə alan pasiyentə beyin ölümü diaqnozunun qoyulmasına dair məlumat daxil olub.**

# Azərbaycanda ilk dəfə meyit donorun orqanları transplantasiya edilib

Koordinasiya Mərkəzi tərəfindən orqan donorluğu və transplantasiyası prosesinin təşkili və əlaqələndirilməsi üzrə aidiyyəti tədbirlər həyata keçirilib. Beyin ölümü diaqnozu qoyulmuş vətəndaşın orqanlarının transplantasiyasına ailəsi razılıq verib. Bununla da, orqan donorluğu və transplantasiyası sahəsində müasir Azərbaycan səhiyyə tarixində ilkə imza atılıb.

Meyit donordan götürülmüş qaraciyər Mərkəzi Gömrük Hospitalında peşəkar tibbi heyət tərəfindən hepatit B və hepatit D-yə görə qaraciyər sirrozundan əziyyət çəkən, canlı donoru olmayan 12.10.2002-ci il təvəllüdlü Şərifova Mənzər Yaşar qızına köçürülüb.

Gözün buynuz qişası Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində peşəkar komanda tərəfindən iki resipiyentə köçürülüb. Onlardan biri Zaqatala, digəri isə Füzuli rayon sakinidir.

Qeyd olunub ki, bu əməliyyatlar yalnız ölkəmizdə deyil, həmçinin Qafqaz regionunda ilk dəfə meyit donordan alınan orqan transplantasiyası əməliyyatlarıdır.



# 28 fevral Nadir Xəstəliklər Günüdür

## Professor Aytən Məmmədbəyli: Tibb elmindəki irəliləyişlər nadir xəstəliklərin effektiv müalicəsinə ümid verir



**"Ümumdünya Səhiyyə Təşkilatı 2000 nəfərdən və ya daha az insandan birindən rast gələnən xəstəlikləri nadir xəstəlikləri kimi tövsif edir. Hazırda dünyada 300 milyondan çox insan nadir xəstəliklərdən əziyyət çəkir. Ədəbiyyatda 8000-ə yaxın müxtəlif nadir xəstəlik növləri təsvir edilib ki, onların da 80%-i genetik irsi xarakter daşıyır".**

Bu fikirləri ATU-nun Nevrologiya kafedrasının müdiri, t.e.d, professor Aytən Məmmədbəyli Beynəlxalq Nadir Xəstəliklər Günü ilə əlaqədar "Təbib" qəzetinə söyləyib. Bildirib ki, çox vaxt nadir xəstəliklər kimi adlandırılan orfan xəstəliklər əhalinin kiçik bir hissəsini əhatə edir: "Nadir olmasına baxmayaraq, onlar bütün dünyada milyonlarla insana təsir edir və nəticədə əhəmiyyətli tibbi, sosial və iqtisadi problemlər yaranır. Fevralın son günündə qeyd olunan Beynəlxalq Nadir Xəstəliklər Günü bu xəstəliklərlə bağlı məlumatlılığı artırır və araşdırmaların aparılmasına sövq edir. Nadir xəstəliklərin yayılması çox dəyişir. Belə ki, bəzi xəstəliklərə bütün dünya üzrə az sayda insanda rast gəlinir, digərləri isə minlərlə insana təsir edə bilir. Nadir xəstəliklərin təxminən 80%-i genetik mənşəlidir və autosomal dominant, autosomal resessiv və ya X ilə əlaqəli şəkildə irsən ötürülür. Bir çox nadir xəstəliklər erkən yaşlarda görünür, bu halların 50-75%-i uşaqlara təsir göstərir. Bəzi xəstəliklər təbiətdə degenerativdir və zamanla fiziki və ya idrak funksiyasının azalmasına səbəb olur. Nadir olduqlarına görə, bir çox xəstəliklər uzun illər ərzində diaqnoz qoyulmamış və ya səhv diaqnoz qoyularaq qalır, nəticədə müalicə gecikir və ya qeyri-adekvat olur. Nadir xəstəliklərin müalicəsinin müxtəlif kateqoriyaları mövcuddur: gen terapiyası, ferment əvəzedici terapiya (FƏT), kiçik molekullu dərmanlar, kök hüceyrə və sümük iliyi transplantasiyası, dəstəkləyici və simptomatik müalicələr. Gen terapiyası genetik nadir xəstəliklərin müalicəsi üçün ən perspektivli irəliləyişlərdən biridir. Bu üsul xəstəliklərə cavabdeh olan səhv genlərin düzəldilməsi və ya dəyişdirilməsini nəzərdə tutur".

Həkimin sözlərinə görə, bir çox nadir xəstəliklərin effektiv müalicəsi olmasa da, tibb elmindəki irəliləyişlər, innovativ, hədəflənmiş və dəstəkləyici müalicələr xəstələr və onların ailələri üçün ümid verir: "Tədqiqatçılar, səhiyyə təminatçıları və siyasətçilər arasında artan məlumatlılıq, maliyyələşdirmə və əməkdaşlıq daha əlçatan və effektiv müalicələrin inkişafı üçün çox vacibdir. Beynəlxalq Nadir Xəstəliklər Günü tibbi innovasiyalara və bu şərtlərdən təsirlənənlərə dəstək üçün davamlı ehtiyacın xatırladılması kimi çıxış edir. Hesab edirəm ki, hədəfə çatmaq üçün tədqiqat və texnologiyaya sərmayə qoymağa davam etməliyik. Bununla da biz daha çox nadir xəstəliklərin həyat qabiliyyətli müalicə variantlarına və xəstə nəticələrinin yaxşılaşdığı gələcəyə doğru irəliləyə bilərik".

**Universitetimizin Tədris Cərrahiyyə Klinikasında "Qalxanabənzər vəzin düyünlərinin müalicəsində lazer termoablasiya üsulu" mövzusunda beynəlxalq təlim keçirilib.**

# Praktiki təlimi xarici mütəxəssislər də izləyib




I Cərrahi xəstəliklər kafedrasının assistenti, t.ü.f.d. Azər Hümmətovun moderatorluğu ilə keçirilən seminarda Azərbaycanla yanaşı, xarici ölkələrdən mütəxəssislər də iştirak ediblər. Təlimin ilk hissəsində A.Hümmətov "Lazer ablasiya üsulunun texniki gedişi, göstərişlər və əks-göstərişlər" haqqında çıxış edib və iştirakçıların suallarını cavablandırıb.

Daha sonra "düyün" maketləri üzərində Biolitec cihazının lazer lifi ilə ablasiyanın aparılması texniki vərdişləri nümayiş etdirilib. Tədbir iştirakçıları da moderatorun nəzarəti ilə bu proseduru yerinə yetiriblər. Təlimin praktiki (vorkşop) hissəsində "Real" hospitalın əməliyyatxanasında A.Hümmətov tərəfindən düyünlü ur diaqnozu təyin edilmiş 3 xəstə üzərində yerli keyləşdirmə ilə lazer ablasiya proseduru yerinə yetirilib. Təlim iştirakçıları əməliyyatı canlı izləmək imkanı qazanıblar.

Yeri gəlmişkən, A.Hümmətov fevralın 13-16-da Türkiyədə keçirilən 12-ci Beynəlxalq Endokrinoloji Cərrahiyyə Konqresində iştirak edib. Endokrin cərrahiyyədə ən son innovativ texnologiyaların tətbiqi, müasir diaqnostika və müalicə üsulları haqqında mövzuların müzakirəyə çıxarıldığı konqresdə əməkdaşımızın 3 məruzəsi (2 sözlü və 1 poster) böyük maraqla qarşılanıb.

**"Prezident İlham Əliyev İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikləri təsdiqləyib. Dəyişikliklərdə istifadə təlimatı olmadan satılan dərman vasitələrinə görə apteklərin cərimə ediləcəyi barədə mediada məlumat yayılıb. Əhali arasında çaşqınlıq yaranmaması üçün bildiririk ki, ölkə ərazisində dərman çatışmazlığının qarşısının alınması məqsədilə atılan ən mühüm addımlardan biri dərman vasitələrinin qeydiyyat-ekspertiza qaydalarının sadələşdirilməsi və beynəlxalq qeydiyyatın tanınması olub".**

**Bu barədə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi məlumat yayıb.**

# Analitik Ekspertiza Mərkəzi son dəyişikliklərlə bağlı məlumat yayıb

Bildirilib ki, dərman vasitələrinin istifadə təlimatları (içlik vərəqə) hər hansı xarici dildə olarsa, qeydiyyat vəsiqə sahibi tərəfindən Azərbaycan dilində təsdiq olunmuş içlik vərəqəsi apteklərə təqdim edilməlidir. Bu tələb "Dərman vasitələri haqqında" Qanunun 11.3-cü maddəsində öz əksini tapır. Belə ki, Azərbaycan dilində olan içlik vərəqəsi dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, istehlakçının tələbi əsasında aptek tərəfindən kağız formasında çap edilərək ona təqdim olunur. Həmin dərman vasitəsinin vəsiqə sahibi apteki Azərbaycan dilində olan istifadə təlimatı ilə təmin etməyə borcludur.

Qanunvericiliyin bu tələbi pozulduğu təqdirdə, İnzibati Xətalar Məcəlləsinin 221.13 və 221.14-cü maddələri üzrə protokol tərtib edilərək inzibati tənbeh tədbirləri görülür. Belə ki, 221.3-cü maddəyə əsasən, Azərbaycan dilində olan istifadə təlimatı dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, həmin dərman vasitəsinin vəsiqə sahibi tərəfindən aptekin Azərbaycan dilində olan istifadə təlimatı ilə təmin edilməməsinə görə vəsiqə sahibləri – vəzifəli şəxs olduqda 1500-2000, hüquqi şəxs olduqda isə 5000-7000 manat məbləğində cərimə edilir.

Apteklər isə yalnız vəsiqə sahibləri tərəfindən Azərbaycan dilində təsdiq edilən istifadə təlimatı ilə təmin edildiyi halda, istehlakçının tələbi əsasında içlik vərəqəsinin kağız formasında çap edərək istehlakçıya təqdim etməməsinə görə 50 manat məbləğində cərimə edilir.

"Əlavə olaraq qeyd etməliyik ki, Prezidentin müvafiq göstərişləri əsasında səhiyyə sahəsində aparılan dəyişikliklərdən biri də elektron resept sistemidir ki, bu sistem vasitəsilə vətəndaşlar dərman vasitələrinin istifadə təlimatları ilə elektron qaydada da tanış ola bilərlər. Bunun üçün vətəndaşlar elektron resept sistemində dərmanlar bölməsinə daxil olaraq, müvafiq dərmanın istifadə təlimatını əldə edə bilərlər", - deyə məlumatda vurğulanıb.

# Türkiyəli professor universitetimizin qonağı olub



**Atatürk Universitetinin Tibb bacılığının əsasları kafedrasının professoru Məğfiret Kaşıkçı Orhun mübadilə proqramı çərçivəsində universitetimizin qonağı olub.**

O, 5 gün müddətində Tibb və sağlamlıq elmləri təhsili kafedrasında fəaliyyət göstərərək, Tibb bacılığı ixtisası üzrə təhsil alan tələbələrə "Türkiyədə tibb bacılığı", "Dərman tətbiqləri" mövzularında mühazirələr oxuyub. Eyni zamanda kafedra əməkdaşları üçün "Dəyər əsaslı səhiyyə xidməti" mövzusunda məruzə edib. Məruzədən sonra professor kafedra əməkdaşları ilə Tibb bacılığı ixtisasında bacarıq əsaslı tədrisin əhəmiyyətindən danışaraq, gələcəkdə bu sahədə ortaq, çoxmərkəzli tədqiqatların həyata keçirilməsi üçün müzakirələr aparıb. Qonaq Azərbaycanda olmaqdan və ölkəmizdəki mütəxəssislərlə əməkdaşlıqdan məmnunluğunu bildirib.

# Elmi Departamentdən faydalı vebinar

**Fevralın 14-də Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşəbbüsü ilə universitetin əməkdaşları üçün EBSCO resursları ilə bağlı vebinar keçirilib.**

294 nəfərin iştirak etdiyi vebinarı Moldova, Mərkəzi Asiya və Qafqaz regionu üzrə müştəri təlimləri mütəxəssisi İrina Serjan açıb. Vebinarda ATU-nun tammətnli elektron tibbi elmi resurslara çıxışı və onlardan istifadə, praktiki, maarifləndirici və tədris fəaliyyəti ilə bağlı geniş məlumatlar verilib. Eyni zamanda ATU-nun marağında olan resursların üstünlükləri izah olunub, əlçatanlığı, praktik əhəmiyyəti nümayiş etdirilib.

İştirakçılara universitetin İP ünvanlarından distant olaraq istifadə edərək DynaMed, Medline Ultimate, İmage Base resurslarından bəhrələnmək qaydaları da izah edilib.

Vebinar zamanı iştirakçıların sualları ətraflı şəkildə cavablandırılıb və hər bir iştirakçının sertifikatla təmin olunması nəzərdə tutulub.




# Azərbaycanlı kardioloq Vaşinqtonda elmi konfransda çıxış edib




**Azərbaycan Tibb Universitetinin məzunu kardioloq Yasmin Rüstəmova ABŞ-nin paytaxtı Vaşinqtonda baş tutan elmi konfransda ölkəmizi təmsil edib. Tibb elmləri doktoru Y.Rüstəmova nufuzlu SCMR təşkilatının (The Society for Cardiovascular Magnetic Resonance - Kardiovaskulyar Maqnit Rezonans Cəmiyyəti ) 28-ci konfransında təqdimat edərək, ölkədə ilk dəfə olaraq aparılan tədqiqatının nəticələri əsasında yaradılmış yeni müalicə üsulu haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.**

Qeyd edək ki, Y.Rüstəmova İtaliyanın Piza şəhərində ürək maqnit-rezonans tomoqrafiyası üzrə 2 il ərzində nəzəri və praktiki təhsil almış, sonradan həmin müayinə üsulunu Azərbaycana gətirmiş ilk mütəxəssisdir. Onun nüfuzlu "Springer" nəşriyyatında çap edilmiş "101 clinical cases in MR" adlı kitabı Avropada bu mövzuda ilk əsərdir.

Yasmin Rüstəmova ATU ilə yanaşı, İsveçrənin Sürix və Böyük Britaniyanın London Kral universitetlərinin məzunudur, rus, ingilis, fransız, alman və italyan dillərində səlis danışa bilir.

# Rezidentlər üçün növbəti seminarlar təşkil olunub



## “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş seminar keçirilib

Fevralın 14-də ATU-nun Rezidentura və magistratura şöbəsi ilə Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş “Sağlamlıq hüquqlarımız” mövzusunda birgə seminarı keçirilib.

Tədbiri açan Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva bildirib ki, seminarın mövzusu çox aktual məsələyə həsr olunub: “İnsanların və ətraf mühitin sağlamlığının qorunması məhz ictimai sağlamlıq sahəsində işləyəcək mütəxəssislərin birbaşa vəzifəsi hesab olunur. Ona görə də onların bu sahədə bilik və bacarıqlarının artırılması vacibdir. Bildiyiniz kimi, ötən il COP29-a ev sahibliyi edən ölkəmizdə ətraf mühitin qorunması Konstitusiya ilə təmin edilib”. Şöbə müdiri vurğulayıb ki, rezidentlər öz tədqiqatlarının nəticələrini yalnız seminar və konfranslarda deyil, həm də elmi məqalələr formasında üzə çıxarmalıdırlar.

Tədbirdə çıxış edən Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva nəzərə çatdırıb ki, Prezident İlham Əliyev 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında sərəncam imzalayıb: “2025-ci il onunla əlamətdardır ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30, Vətən müharibəsində qələbəmizin isə 5-ci ildönümü tamam olur. Əsrlər boyu başına bəlalar gətirilmiş, yadelli işğalçıların hücumlarına məruz qalmış xalqımız indi ən böyük arzusuna çatıb və tarixinin ən xoş çağlarını yaşayır. Müstəqil və suveren dövlətə sahibik.

Bu gün xalqımızın milli maraqlarının Konstitusiyamızda öz əksini tapmış hüquqlarından bilavasitə bugünkü seminarımıza aid olan bir neçə maddəni qeyd etmək istəyirəm. Konstitusiyanın 39-cu maddəsinə görə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ var. Bu maddənin 3-cü bəndində göstərilir ki, heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. 78-ci maddədə isə deyilir ki, ətraf mühitin qorunması hər bir şəxsin borcudur. Bundan başqa, 41-ci maddənin 2-ci bəndində göstərilir ki, dövlət əhalinin sanitariya-epidemiologiya salamatlığına təminat verir. Gigiyena ixtisası üzrə təhsil alan rezidentlər üçün bu seminarımız da Konstitusiya vasitəsilə təsbit edilmiş sağlamlıq hüquqlarımıza həsr edilib”.

Sonra söz rezidentlərə verilib. Ülviyyə Əhmədova “Uşaqların sağlam inkişafında məktəbəqədər təhsilin rolu” (elmi rəhbər: dosent Zöhrə İsmayılova), Günel Yusubova “Müasir avtonəqliyyat növləri ilə atmosfer havasının çirkləndirilməsinin müqayisəli şəkildə qiymətləndirilməsi” (elmi rəhbər: dosent Fərəh Baxışlı), Aytac Namazova “Neftçıxarma sənayesinin iqlim dəyişkikliyinə təsiri” (elmi rəhbər: dosent Minayə Nəbiyeva) və Elvira Nadirova “Tozlar ətraf mühitə və canlılara zərərverici amil kimi” (elmi rəhbər: dosent Cəmilə Salihova) mövzularında çıxış ediblər.

Çıxışlara münasibət bildirən kafedra müdirlərindən professor İbadulla Ağayev, dosent Fəridə Əli, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva və digərləri məruzəçilərin yaxşı hazırlığına və seminarın yüksək səviyyədə təşkilinə görə elmi rəhbərlərə təşəkkür ediblər. Onlar mövzuların günümüzün mühüm problemlərinə həsr olunduğunu vurğulayıblar.

* * *

## Plastik və rekonstruktiv cərrahiyyə mövzusunda seminar maraqla qarşılanıb

ATU-nun Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə şöbəsi, Ağız və üz-çənə cərrahiyyəsi kafedrası və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə seminar keçirilib.

"Plastik və rekonstruktiv cərrahiyyədə estetik və bərpa əməliyyatlarından sonra klinik nəticələrin psixososial tərəfləri" mövzusunda seminarda ilk olaraq, Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri, Beynəlxalq Plastik Cərrahiyyə Assosiasiyası İdarə Heyətinin həqiqi üzvü, t.e.d, professor Vaqif Qələndər çıxış edib. O, plastik, estetik və rekonstruktiv əməliyyatlar sahəsində yeniliklərdən danışıb, öz metoduna əsaslanaraq xəstə seçimi zamanı cərrahi əməliyyatı necə apardığını rezidentlərə ətraflı qaydada izah edib. Professor anadangəlmə hemangiomaların cərrahi yolla müalicəsinin xüsusi məqamlarını diqqətə çatdıraraq, qulaq və süd vəzi rekonstruksiyalarına toxunub: “Plastik cərrahiyyə pasiyentin sağlamlığını və funksionallığını bərpa etmək məqsədi daşıyır. Buraya doğuşdan mövcud olan qüsurların (məsələn, dodaq-çənə yarıqları) düzəldilməsi, travma, yanıq və ya onkoloji əməliyyatlardan sonra toxuma rekonstruksiyası kimi məsələlər daxildir. Estetik cərrahiyyə isə pasiyentin xarici görünüşünü yaxşılaşdırmaq və gözəllik standartlarına uyğunlaşdırmaq məqsədi güdür. Bu əməliyyatlar, əsasən sağlam insanların üzərində həyata keçirilir və əsas məqsəd estetik harmoniyanı təmin etməkdir”.

Sonra Plastik, estetik və rekonstruktiv cərrahiyyə üzrə III kurs rezident Ramilə Məmmədova (Əliyeva) “Plastik cərrahların bilməli olduğu yeni fleblər” mövzusunda çıxış edib. O, gələcək plastik cərrahlara defektə uyğun fleb seçimindən danışıb, eləcə də baş, boyun və üz rekonstruksiyalarında istifadə olunan fleblərdə doppler müayinəsinin əhəmiyyətini vurğulayıb: “Baş, boyun və üz əməliyyatları müxtəlif tibbi və estetik səbəblərdən geniş spektrli cərrahi prosedurları əhatə edir. Bu əməliyyatların məqsədi xəstələrin sağlamlığını yaxşılaşdırmaq, funksional problemləri düzəltmək və ya estetik görünüşü təkmilləşdirməkdən ibarətdir”.



Daha sonra klinikanın Plastik cərrahiyyə şöbəsinin müdiri, Ümumi cərrahlıq kafedrasının assistenti Adil Cümşüdov rəhbərlik etdiyi şöbədə rezidentlərin yetişməsinə xüsusi diqqət ayrıldığını nəzərə çatdırıb. Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti Nigar Sultanova rezidentlərin məqalələr yazması və xarici jurnallarda dərc etdirməsinin vacibliyi, III Cərrahi xəstəliklər kafedrasının dosenti Elmar Şərifov isə plastik cərrahiyyədə rekonstruktiv əməliyyatların həyati önəm daşıması barədə fikirlərini səsləndiriblər.

Tədbirdə TCK-nın həkim-rezidentləri ilə yanaşı, Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun rezidentləri də iştirak ediblər.

* * *

## Hərbi tibb fakültəsinin rezidentləri aktual mövzularda çıxış edib



Tədris Terapevtik Klinikada osteoporozun terapevtik vəFevralın 15-də ATU-nun Hərbi tibb fakültəsinin Rezidentura və təkmilləşdirmə kursunun təşkilatçılığı, universitetin Rezidentura və magistratura şöbəsinin dəstəyi ilə rezidentlər üçün növbəti seminar keçirilib.

Yoluxucu xəstəliklər ixtisası üzrə III kurs rezidenti Tural Nuriyev “Botulizm xəstəliyi”, Məhkəmə-tibbi ekspertizası və patoloji anatomiya ixtisası üzrə II kurs rezidenti Anar Məcidli “Tibb işçilərinin peşə sahəsindəki qanunsuz hərəkətləri zamanı aparılan məhkəmə-tibbi ekspertizası”, Travmatologiya-ortopediya ixtisası üzrə II kurs rezidenti Elçin Hüseynov “Daban sümüyünün kistası”, Oftalmologiya ixtisası üzrə II kurs rezidenti Yusif Seyidov “Refraktiv cərrahiyyə”, Otorinolarinqologiya ixtisası üzrə III kurs rezidenti Fuad Əliyev isə “Sinusitlər” mövzularında çıxış ediblər.

Rezidentura və magistratura şöbəsinin müdir müavini N.Xəlilov tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkür edərək, rezidentlərin elmi yenilikləri davamlı olaraq izləməsi, qabaqcıl təcrübələri bölüşməsi və elmi-tədqiqat işləri aparmasının vacibliyini vurğulayıb.

Tədbirdə fakültənin Rezidentura və təkmilləşdirmə kursunun rəisi, tibb xidməti polkovniki Zakir Qədiməliyev və müxtəlif ixtisaslar üzrə bütün kurslardan rezidentlər iştirak ediblər.

* * *

## Uğurlu əməliyyat eşitmə problemini aradan qaldırır

Fevralın 15-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında Qulaq, burun, boğaz xəstəlikləri kafedrası ilə Rezidentura və magistratura şöbəsinin “Mirinqoplastika” mövzusunda birgə seminarı keçirilib.



Tədbir iştirakçılarını salamlayan kafedranın müdiri, professor Vəfa Pənahian seminarın mövzusu barədə məlumat verərək, bu sahədəki yeniliklərdən bəhs edib. Bildirib ki, bu əməliyyat qulaqda olan kiçik dəliklərin və ya yırtıqların düzəldilməsi prosedurudur.

Bundan sonra məruzəçi - tanınmış otorinolarinqoloq, polkovnik Elnur Əkbərov mirinqoplastika əməliyyatı ilə bağlı çıxış edərək öz təcrübəsini bölüşüb: “Əsasən xroniki orta otitdən sonra yaranan qulaq pərdəsi dəliklərində bu əməliyyat üsulundan istifadə olunur. Mirinqoplastikanın köməyi ilə qulaq pərdəsi yenidən qurulur və orta qulağın xarici mühitlə əlaqəsi əngəllənmiş olur. Bu həm eşitmə azlığını aradan qaldırır, həm də qulaq pərdəsindəki dəlik səbəbindən yarana biləcək infeksiyalar və bu infeksiyaların fəsadlarından qoruyan bir divar yaradır”.

Qulaq pərdəsinin bərpasında cərrahi müdaxilənin üstünlüklərindən danışan mütəxəssis, uğurlu bir əməliyyatın eşitmə funksiyasını əhəmiyyətli dərəcədə yaxşılaşdırdığını, həmçinin xəstənin ümumi həyat keyfiyyətini yüksəltdiyini vurğulayıb.

Seminarda həkim-rezidentlər, o cümlədən üz-çənə cərrahı, professor Elçin Əhmədov iştirak edib.

* * *

## Fobiyaların növləri və müalicə üsulları



Fevralın 13-də ATU-nun Psixiatriya kafedrası ilə Rezidentura və magistratura şöbəsi həkim-rezidentlər üçün növbəti birgə seminar keçirib.

Tədbiri giriş sözü ilə açan 2 saylı Klinik Psixiatriya Xəstəxanasının Rezidentlərlə iş üzrə məsul şəxsi, professor Zəfər Əliyev bildirib ki, bugünkü seminarın mövzusu "Fobiyalar və fobik pozuntular"dır (elmi rəhbər: dosent Leyla Mehtiyeva). Mövzuya dair fikirlərini bölüşən Z.Əliyev qeyd edib ki, fobiya müəyyən bir obyektə və ya vəziyyətə qarşı irrasional və həddindən artıq baş verən qorxudur. İnsan bu qorxusunun əsassız olduğunu bilsə də, bu, güclü narahatlıq reaksiyasına və hətta panik ataklara belə səbəb ola bilər. Seminara moderatorluq edən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov bu cür pozuntuların erkən diaqnostikası və müalicəsinin vacibliyini söyləyib. Bildirib ki, statistikaya görə, sosial fobiya ən geniş yayılmış fobiya növüdür və ona qadınlarda daha çox rast gəlinir.

Sonra məruzəçi, psixiatr-rezident Nərmin Quluzadə çıxış edərək seminarın mövzusu və fobiyaların təsnifatı haqqında məlumat verib. O, fobiyaların üç əsas növünün – agorafobiya, sosial fobiya və spesifik fobiyaların xüsusiyyətlərindən danışıb. Qeyd edib ki, fobiyalar insanın gündəlik həyatına ciddi təsir göstərə və vaxtında müalicə edilməzsə, daha ağır psixoloji problemlərə səbəb ola bilər: “Sosial fobiya insanın digər insanlarla ünsiyyətdə və ya ictimaiyyət qarşısında çıxış edərkən hədsiz qorxu keçirməsi ilə xarakterizə olunur. Agorafobiya açıq məkanlarda, izdiham içində və ya kömək ala bilməyəcəyi yerlərdə olmağa qarşı qorxunu əhatə edir. Spesifik fobiyalar isə müəyyən obyektlərə və ya vəziyyətlərə qarşı irrasional qorxu ilə səciyyələnir (məsələn, hündürlük, qaranlıq, iynə və s.)”

Müalicə üsullarına da toxunan məruzəçi bildirib ki, fobiyaların idarə olunmasında koqnitiv-davranış terapiyası, ekspozisiya terapiyası və dərman müalicəsi əsas vasitələrdir. Həssaslığın azaldılması (desensitizasiya) və kəskin qarşılaşdırma terapiyası effektivdir: “Bu metodlar insanı tədricən və yaxud birbaşa qorxduğu vəziyyətə məruz qoyaraq beynin həmin qorxunu təhlükəsiz qəbul etməsinə kömək edir. Bundan əlavə, göz hərəkətinin desensitizasiyası və yenidən emalı (EMDR) terapiyası travmatik xatirələri azaltmaqda və fobiyalarla mübarizədə faydalıdır”.

# Qotur xəstəliyi yüksək yoluxuculuq qabiliyyətinə malikdir

## Dosent Səbinə Əhmədova dözülməz qaşınmaya səbəb olan dermatozlara son vaxtlar tez-tez rast gəlindiyini deyir



**“Qaşınma ilə müşayiət olunan dermatozların ən çox rast gəlinən forması qotur xəstəliyidir (Sarcoptes scabiei adlanan gənənin törətdiyi yüksək yoluxucu parazitar dermatoz). Xəstəlik insanların daha sıx toplaşdığı ərazilərdə - məktəblər, uşaq bağçaları, universitetlər, idman bölmələri və s. yerlərdə müşahidə olunur”. Bu sözləri ATU-nun Dermatovenerologiya kafedrasının dosenti Səbinə Əhmədova deyib.**

O, son dövrlər bu infeksiyanın daha aktual olduğunu qeyd edib və bildirib ki, qotur xəstəliyi antroponoz infeksiyadır, xəstə insanla birbaşa təmas zamanı, həmçinin məişət əşyaları, geyim, hamam ləvazimatları və yataq dəsti vasitəsilə keçə bilər. Yoluxma mənbələri kimi mehmanxanalar, masaj salonları, ictimai hamamlar və saunalar qeyd olunur.

“Qotur xəstəliyi hələ 4 min il əvvəl Çin, Misir və digər ölkələrdə məlum idi. 1834-cü ildə Fransada qaşınma xəstəliyinin yaranmasında gənələrin rolu elmi cəhətdən sübuta yetirilib. Gənələr fərqli cinslidir və insan dərisinin epidermis qatında yaşayaraq qaşınma gedişləri əmələ gətirirlər. Bu gedişlər boyunca dişi gənələr yumurta qoyur. Dişi gənələr 6-8 həftəlik ömür müddətində 50-yə qədər yumurta qoyur. Epidermis qatında gənələrin hərəkəti güclü, dözülməz qaşınmaya səbəb olur. Gecələr qaşınmanın daha da artması gənənin istiliyə qarşı həssaslığı ilə bağlıdır. Güclü qaşınma dərinin daha dərin zədələnməsinə, qaşınmadan yaranan yaralara səbəb olur. Bu vəziyyət xüsusilə uşaqlarda və körpələrdə ikincili bakterial infeksiya ilə ağırlaşa bilər. Bu, klinik mənzərəni dəyişir və diaqnostikada səhvlərə yol açır. Buna görə epidemioloji məlumatların toplanması və mikroskopik təsdiq xüsusi əhəmiyyət kəsb edir. Allergodermatoz xəstələrdə bu infeksiya əsas xəstəliyin kəskinləşməsinə səbəb ola bilər”.

Xəstəliyin simptomlarından danışan Səbinə xanım əlavə edib ki, onun inkubasiya dövrü 7-10 gün davam edir: “Klinik əlamətləri gecələr daha çox hiss olunan intensiv qaşınma və cüt-cüt səpgilərdir (gənənin giriş/çıxış yerləri). Daha çox barmaqların arası, göbək ətrafı, budun iç tərəfi, oynaqların qatlanma yerləri, bədənin yan hissələrində müşahidə olunur.

Diaqnostikasına gəldikdə isə, mikroskopik müayinə ilə 10%-lik qələvi məhlulu və ya 40%-lik süd turşusu məhlulundan istifadə edilir. Analizin nəticələri 15-20 dəqiqə ərzində əldə olunur.

Onu da vurğulayım ki, qotur xəstəliyinin təsdiqində son dövrlər ən geniş istifadə olunan üsul dermatoskopiyadır. Bu metod travmatik deyil və tez həyata keçirilir”.

Mütəxəssis əlavə edib ki, bu xəstəliyin müalicəsində antiparazitar preparatlardan istifadə olunur. Benzilbenzoat emulsiyası, 33%-lik kükürd məlhəmi, uşaqlar və hamilə qadınlar üçün “Spregal” spreyi (12 saatdan sonra yuyulur). Müalicədən sonra dərinin bütövlüyünü bərpa etmək üçün nəmləndirici vasitələr, lazım gəldikdə isə, kortikosteroid məlhəmlər təyin edilir.

Qoturluğun müalicəsinin olduğunu deyən S.Əhmədova, xəstəlik nə qədər tez aşkarlanarsa, müalicənin də bir o qədər effektli olacağını bildirib. Yoluxmanın qarşısını almaq üçün isə geyimlər, məişət əşyaları, yumşaq mebel diqqətlə dezinfeksiya edilməlidir. Xəstəlik yüksək yoluxuculuq qabiliyyətinə malik olduğu üçün müalicə ilə yanaşı, epidemioloji tədbirlərin həyata keçirilməsi də vacibdir.

# Tibbdə süni intellekt inqilabı

## Assistent Şəbnəm Hacıyeva: Böyük üstünlüklər gətirən yeni texnologiyalar ölkəmizdə də tətbiq olunur

**“İnsan zəkasını imitasiya edə bilən texnologiyanın, yəni süni intellektin ideyası müasir kompüterlər ortaya çıxmamışdan çox əvvəl yaranıb. Süni intellekt termini ilk dəfə 1956-cı ildə istifadə olunub. Həmin dövrdən sonra dünya üzrə korporasiyalar və hökumətlər süni intellektin inkişafına böyük sərmayələr yatırmağa başladı”. Bunu ATU-nun Tibbi və bioloji fizika kafedrasının müəllimi, assistent Şəbnəm Hacıyeva deyib.**



O bildirib ki, sonradan internetin yaranması ilə yığılan və emal olunan məlumatların sayı kəskin artıb və bu, süni intellekt texnologiyasının inkişafı üçün əlavə stimul olub: “Bu gün süni intellekt texnologiyaları müxtəlif sektorlarda, o cümlədən səhiyyə sistemində geniş istifadə edilir. Aparıcı klinikaların arxiv məlumatları əsasında yaradılmış CDSS (Clinical Decision Support System) sistemi regionlarda həkim çatışmazlığını aradan qaldırmağa kömək edir. Bundan başqa, süni intellekt əsaslı virtual assistent proqramı həkim müalicəsinə əlavə olaraq 7/24 iş rejimində konsultasiya xidməti göstərir. Bu zaman anonimliyə icazə verildiyindən, xəstələr həssas məsələlərini söyləməkdə daha rahat olurlar. Lakin süni intellektin (Sİ) daim insan nəzarəti altında olması vacibdir”.

Ş.Hacıyeva qeyd edib ki, Sİ Azərbaycanda rəqəmsallaşmanı əhəmiyyətli dərəcədə sürətləndirib: “Onun inkişafı və milli Sİ fəaliyyətinin, qabiliyyətinin çevik idarə olunması məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində Azərbaycan Süni İntellekt Laboratoriyası yaradılıb. İdeal olan odur ki, süni intellekt insanları əvəz etmək yox, onların işini sürətləndirmək, asanlaşdırmaq, yükünü azaltmaq, səhv qərarların verilməsindən çəkindirmək, onları sığortalamaq üçün istifadə olunsun. Bu halda Sİ cəmiyyət tərəfindən də anlayışla qarşılanacaq. Ona görə də bu sahədə təbliğat və təşviqatın məhz bu yöndə qurulması vacibdir”.

Sözünə davam edən Ş.Hacıyeva vurğulayıb ki, son dövrlər ölkəmizdə tibb sahəsində də süni intellektin tətbiqinə təkan verilir: “Süni intellektin tibdə tətbiqi son illərdə səhiyyə sahəsində mühüm dəyişikliklərə səbəb olub. Lakin bu texnologiyanın geniş miqyasda tətbiqi bir sıra çətinliklərlə qarşılaşır. Əsas çətinliklər texnoloji, etik, hüquqi və sosial məsələlərlə bağlıdır. İlk növbədə, tibbi məlumatların keyfiyyəti və əlçatanlığı süni intellektin düzgün işləməsi üçün vacibdir. Lakin tibbi məlumatların müxtəlifliyi, tam olmaması və qeyri-dəqiqliyi nəticəsində alqoritmlər yanlış nəticələr verə bilər. Həmçinin məlumatların təhlükəsizliyi və gizliliyi məsələləri də ciddi narahatlıq doğurur. Tibb sahəsi daim inkişaf edən və yeni texnologiyaların inteqrasiyası ilə daha da təkmilləşən bir sahədir. İnsan sağlamlığını qorumaq və xəstəliklərin müalicəsində yüksək effektivliyə nail olmaq üçün müasir yanaşmaların tətbiqi həkimlərin və tədqiqatçıların əsas məqsədlərindən biridir.

Bu kontekstdə Sİ texnologiyaları tibb sahəsində inqilabi dəyişikliklərə səbəb olur. Onun köməyi ilə tibb sahəsində görüntülərin tanınması ən ümidverici və sürətlə inkişaf edən sahələrdən biridir. Dərin neyron şəbəkələri (DNŞ) və konvolyutional neyron şəbəkələri (KNŞ) kimi müasir alqoritmlər, rentgen, MRT, KT və elektron mikroskopiya (EM) kimi tibbi görüntüləri təhlil edərək xəstəliklərin diaqnostikasının dəqiqliyini və sürətini əhəmiyyətli dərəcədə artırır. Bu, tibb xidmətlərinin keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, yeni müalicə və profilaktika üsullarının inkişafına da kömək edir. Tibdə görüntülərin tanınması tibbi görüntülərin avtomatik analizi vasitəsilə patologiyaların və anomaliyaların müəyyən edilməsini əhatə edir. KNŞ kimi müasir süni intellekt alqoritmləri müxtəlif xəstəliklərə xas olan mürəkkəb vizual nümunələri dəqiq müəyyən etmək üçün böyük məlumat həcmləri üzərində öyrədilir”.

Şəbnəm xanım onu da bildirib ki, son vaxtlar kafedra müdiri, dosent İsmayıl Qafarovun rəhbərliyi altında kafedranın əməkdaşları süni intellekt vasitəsi ilə tibbi görüntülərin əldə olunması sahəsində araşdırmalar aparır: “Əsas texnologiyalar – tibbi görüntülərdən vacib xüsusiyyətləri çıxarmaq və təhlil etmək üçün modellərin imkanlarını artıran konvolyutional neyron şəbəkələridir. Bu metodlar müxtəlif tibbi vəziyyətlərin tanınması və təsnifatında yüksək dəqiqlik təmin edir. Əsas üstünlük verdiyimiz məsələlər tibbi diaqnostikada süni intellekt ilə mammoqrafiya, KT və MRT analizləri vasitəsilə xərçəng kimi xəstəliklərin erkən mərhələdə aşkarlanmasını təmin etmək və bu sahədə alqoritmlərin insanın nəzərindən qaça biləcək kiçik şişləri və anomaliyaları aşkar edə bilməsinə öz töhfələrimizi verməkdir”.

**M.ƏLƏKBƏRLİ**

***Pubertal dövr həm pasiyent, həm də diş həkimi və ya ortodont üçün olduqca çətin bir yaş dövrüdür. Həkim sürətli diaqnoz qoymağa imkan verən bütün məlumatları təhlil etməlidir. Həm terapevtik, həm də ortodontik tam sanasiya üçün kariyes rezistentliyi və periodontal reaktivliyi tənzimləyən proseslərə birbaşa və ya dolayı olaraq təsir edən bütün orqan və sistemlərin vəziyyəti nəzərə alınmalıdır.***



# Yeniyetmələrdə periodontal reaktivlik, metabolik proseslər və kariyes rezistentliyi

Diş minasının remineralizasiya və demineralizasiya prosesləri, həmçinin sümük toxumasının rezorbsiya və böyümə prosesləri zamanı fizioloji tarazlıq makro və mikroelementlərin tarazlığı hesabına həyata keçirilir. Bu tarazlığı yaş nöqteyi-nəzərindən düşündükdə, belə sabitliyin çox dinamik olduğu qənaətinə gələ bilərik. Bir çox eksperimental və klinik tədqiqatlar mineral maddələr mübadiləsinin ən qeyri-sabit göstəricilərinin 12-15 yaş dövrünə xas olduğunu təsdiqləyir. Məhz bu yaş qrupuna kariyesin yüksək yayılması, intensivliyi və əhəmiyyətli dərəcədə artımı xasdır və eyni dövrdə daimi dişlərin (kiçik azı dişləri, kəsici dişlər, ikinci böyük azı dişləri) çıxması və aktiv mineralizasiyası baş verir.

Qeyd etmək lazımdır ki, yeniyetmələrdə sosial-psixoloji adaptasiya ilə əlaqədar olaraq, bədənə kəskin şəkildə artırılmış tələblər irəli sürülür. Bədənin balans sabitlərinin tənzimlənməsindəki pozuntunu xarakterizə edən anamnez məlumatlarının əhəmiyyətini kiçiltməmək lazımdır (prepubertat dövrdə uşaqların 75%-i, pubertat dövrdə isə 85%-i bundan əziyyət çəkir). Bunun fonunda tez-tez mikro və makroelementlərin tarazlığının pozulmasını izləmək mümkündür ki, bu da tənzimləyici sistemlərin - endokrin, sinir və immun sistemlərinin funksiyası ilə ayrılmaz şəkildə əlaqəlidir. Bu prosesləri tənzimləmək üçün bədən sisteminə tələblər artır. Bu elementlərdən ən vacibləri kimi kalsium və fosforu göstərmək istərdim. Kalsiumun bədəndəki mübadiləsi əsasən hidroksiapatit kristalları şəklində hüceyrəxarici kalsiumun çox hissəsi ilə birləşən fosfatların mübadiləsi ilə sıx şəkildə əlaqəlidir. Kalsiumun 98%-i və fosforun 85%-i sümük və dişlərdə birləşir.

Pubertal dövrdə sümük maddəsinin intensiv formalaşması və mineralizasiyası baş verir. Sağlam və tarazlaşdırılmış orqanizmdə hər bir sümüyün yenidən qurulması vahidi zamanla və sayla sabitdir. 30 gün ərzində 100μm sümük sorulur və təxminən 90 gündə 100μm yeni sümük ilə əvəz olunur, yəni tam dövr təxminən 4 ay çəkir. Periodontal toxumalarda iltihab olduğu halda, yeni sümüyün bərpası üçün zaman ən yaxşı halda artır və ən pis halda isə bu heç baş vermir.

Beləliklə, anamnez toplanarkən qalxanabənzər vəzi və qalxanabənzər ətraf vəzilərinin, mədəaltı vəzinin fəaliyyətində hər hansı bir pozuntunun (endokrinoloji klinikada qeydiyyatdadırmı) və mədə-bağırsaq sistemi xəstəliklərinin olub-olmamasını (bunlar mineral maddələr, sümük mübadiləsi və D vitamini mübadiləsi ilə bağlı müxtəlif pozuntulara səbəb olur) dəqiqləşdirmək vacibdir.

**Elnur İMANOV**
*ATU-nun Uşaq stomatologiyası kafedrasının dosenti*

# Əməkdaşımız beynəlxalq layihədə ölkəmizi təmsil edib



ATU-nun Ortopedik stomatologiya kafedrasının əməkdaşı Narın Babayeva diş köklərinin anatomiyasına həsr olunmuş V beynəlxalq layihədə Azərbaycanı təmsil edib. 44 ölkədən 44 beynəlxalq səviyyəli endodontiya mütəxəssisinin qatıldığı layihədə hər bir endodontist CBCT (kompüter tomoqrafiyası) əsasında öz ölkəsinin etnik xüsusiyyətlərini nəzərə almaqla 2200 diş üzərində diş köklərinin anatomiyasını öyrənib və nəticələri barədə xüsusi tərtib olunmuş Exel sənəddə qeydlər aparıb.

ATU əməkdaşının apardığı araşdırmaların nəticələri də endodontiya sahəsində dünyanın 1 nömrəli, Q1 səviyyəli JOE (JOURNAL OF ENDODONTICS) jurnalında 4 məqalə ilə nəşr olunub.

# Əməkdaşımız Pakistandan qayıdıb

**Bioloji kimya kafedrasının nəzdində elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi Hafiz Osmanov 16-cı Beynəlxalq Təbii Məhsullar Kimyası Simpoziumunda iştirak edib.**



Toplantı Pakistan İslam Respublikasının Kəraçi Universiteti nəzdində olan Beynəlxalq Kimya və Biologiya Elmləri Mərkəzi tərəfindən təşkil olunub.

Simpoziumda İsveç, Almaniya, İtaliya, Türkiyə, Qazaxıstan, Çin, Rusiya, İran, Əlcəzair, Misir, İordaniya, Pakistan, Səudiyyə Ərəbistanı, Yəmən, Nigeriya, Kamerun və s. ölkələrin tanınmış kimyaçı alimləri maraqlı məruzələrlə çıxış ediblər.

Hafiz Osmanov Elm və Təhsil Nazirliyinin akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşları ilə birgə 2 poster-tezis təqdim edib. Hər iki poster Naftalan neftindən ayrılan "Ağ naftalan" preparatı, eləcə də tərkibində naften karbohidrogenləri olan bəzi dərman və kosmetik vasitələrin kimyəvi tərkibi, tibbi təsir mexanizmlərinin öyrənilməsi perspektivləri barədə olub.

Simpozium çərçivəsində məşhur azərbaycanlı kimyaçı alim, Naftalan neftinin tibbi təsir mexanizmini araşdıran akademik Yusif Məmmədəliyev haqqında məlumatlar sərgidə yer alıb.

Tədbirin yekununda iştirakçılara sertifikatlar təqdim olunub, beynəlxalq mərkəzin direktoru, professor Farzana Shaheen ilə Hafiz Osmanovun həmtəsisçisi olduğu "Science for Health" MMC arasında qarşılıqlı anlaşma-əməkdaşlıq memorandumu imzalanıb. Sənəddə Azərbaycan və Pakistan arasında bütün sahələrdə, o cümlədən elm və təhsil sahəsində strateji əməkdaşlığın genişləndirilməsi istiqamətində tədbirlərin görülməsi, ortaq layihələr və təcrübə mübadiləsinin aparılması əks olunub.

# "Radiologiya" adlı dərslik işıq üzü görüb

**ATU-nun Elmi işlər üzrə prorektoru, Şüa diaqnostikası kafedrasının müdiri, professor Məlahət Sultanın müəllifliyi ilə radiologiya sahəsinə dair ana dilimizdə dərslik hazırlanıb. Dərslik tələbələr, rezidentlər və gənc həkimlər üçün nəzərdə tutulub.**



"Radiologiya" dərsliyində müasir şüa diaqnostikasında istifadə olunan bütün müayinələr geniş və ətraflı şərh edilib, onların müxtəlif xəstəliklərin diaqnostikasında tətbiqi prinsipləri işıqlandırılıb. Radiologiyanın bütün sahələrinə aid şəkillərin əks olunduğu kitab, tələbələri bu sahəyə dair dərin elmi biliklərlə tanış etmək, həm də daim inkişaf edən radiodiaqnostika elminə maraq və həvəsi artırmaq məqsədi ilə hazırlanıb.

Qeyd edək ki, "Radiologiya" dərsliyi 263 səhifədən ibarətdir. Bundan əvvəlki "Şüa diaqnostikası" adlı dərslik uzun illər ərzində kafedraya rəhbərlik etmiş professor Bahadur Baxşıyevin müəllifliyi ilə 2012-ci ildə çap edilib.

# Müəllimlər şahmat və stolüstü tennis üzrə yarışıb

**ATU-nun Tədris İdman Kompleksində "Təbib" idman klubu və Bakı şəhəri Gənclər və İdman İdarəsinin (BGİİ) birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin professor-müəllim heyəti arasında şahmat və stolüstü tennis üzrə Nəsimi rayon turniri keçirilib.**

Turnirə ölkənin müxtəlif universitetlərindən əməkdaşların dəvət edildiyini deyən "Təbib" idman klubunun sədri Qələndər Aslanov bildirib ki, hələ dərslərin başlanmamasını nəzərə alaraq, müəllimlərin asudə vaxtlarını daha səmərəli keçirməsi üçün belə bir yarışa start verilib. Onun sözlərinə görə bu yarışlara şahmat üzrə 7 universitetdən 28, stolüstü tennis üzrə isə 5 universitetdən 32 nəfər əməkdaş qatılıb. Hər iki turnir gərgin mübarizə şəraitində keçsə də, əsas məqsəd dostluq əlaqələrinin möhkəmləndirilməsi və professor-müəllim heyətinin asudə vaxtının faydalı təşkili idi. Həmişə olduğu kimi, bu dəfə də Bakı şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayon sektoru yarışların keçirilməsinə xüsusi diqqət ayırıb.



Fevralın 14-də Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində hər iki turnirdə qalib gələn əməkdaşların mükafatlandırılması mərasimi baş tutub. Tədbirdə BGİİ-nin baş məsləhətçisi Sirac Axundov, idarənin Nəsimi rayonu üzrə gənclər və idman sektorunun müdiri Yusif Babanlı, eləcə də yarışa qatılan universitetlərin nümayəndələri iştirak ediblər. Tədbiri Qələndər Aslanov açaraq bütün iştirakçıları salamlayıb və yarışların nəticələri haqqında məlumat verərək qalibləri təbrik edib.

Tədbirdə çıxış edən Yusif Babanlı ilk növbədə ATU-da idman yarışları üçün hər cür şəraitin yaradılmasından məmnunluğunu dilə gətirib. O, qaliblərə Gənclər və İdman Nazirliyi və Bakı şəhər Gənclər və İdman İdarəsinin rəhbərliyinin təbriklərini çatdıraraq uğurlarının davamlı olmasını arzulayıb.

Tədbirin sonunda turnirin qalibləri elan edilib, onlara kuboklar və diplomlar təqdim olunub. Stolüstü tennis üzrə kişilər arasında İftixar Məhərrəmov (Bakı Ali Neft Məktəbi) I, Siyavuş Axundov (UNEC) II, Səfər Səfərov (ATU) III, qadınlar arasında isə Aygün İsmayılova (UNEC) I, Əzizə Cəfərova (Bakı Ali Neft Məktəbi) II və Nazlı İsmayılzadə (Bakı Ali Neft Məktəbi) III yerə layiq görülüblər.

Şahmat turnirində kişilər arasında Ramin Həşimov (ATU) I, Oqtay Quliyev (UNEC) II, Anar Eyyubov (UNEC) III, qadınlar arasında isə Fidan Ağasiyeva (Milli Aviasiya Akademiyası) I, Leyla Xasıyeva (BDU) II, İlhamə Hüseynova (ATU) III yeri tutub.

# İşgüzar, bacarıqlı və təcrübəli mütəxəssis



Bu günlərdə Azərbaycan Tibb Universitetinin Mərkəzləşdirilmiş mühasibatlığının baş mühasibinin müavini, işgüzar, bacarıqlı və təcrübəli mütəxəssis Şəfəq Əli qızı Qasımovanın 70 yaşı tamam olub.

1955-ci ilin fevralında anadan olan Şəfəq xanım 1977-ci ildən Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) mühasibatlıq şöbəsində əmək fəaliyyətinə başlayıb.

O, 50 ilə yaxın bir müddətdə öz vəzifəsini layiqincə yerinə yetirməklə yanaşı, ATU Qadınlar Şurasının sədri kimi də çalışdığı kollektivin ictimai həyatında xüsusi fəallıq göstərib.

Həm yüksək peşəkarlığı, həm də gözəl şəxsi keyfiyyətləri ilə kollektivin dərin hörmətini qazanmış Şəfəq xanımı 70 illik yubileyi münasibətilə universitetin əməkdaşları adından təbrik edir, ona doğmalarının əhatəsində sağlıqlı uzun ömür, iş fəaliyyəti və şəxsi həyatında uğurlar arzulayırıq!

# Anadır, ana!

**Əzizdən əzizdir insana övlad,**
**Ana varlığıyla gözəldir həyat.**
**Yoxdu kainatda ondan uca ad,**
**Hikmətə sığmayan anadır, ana!**

**Adına nə qədər şeir, dastan var,**
**Şəninə qoşulub saysız mahnılar.**
**"Analar tablosu" çəkib rəssamlar,**
**Sənətə sığmayan anadır, ana!**

**Peyğəmbər buyurub, saxlayın yadda:**
**"Cənnət anaların ayağı altda!"**
**Bundan yüksək dəyər yoxdur dünyada,**
**Qiymətə sığmayan anadır, ana!**

**Gecəsi, gündüzü qayğısız ötməz,**
**İşığı tükənməz, sevgisi bitməz.**
**Haqqından çıxmağa yüz ömür yetməz,**
**Heyrətə sığmayan anadır, ana!**

**Analar dayaqdır yar-yoldaşına,**
**Onlar həm arxadır can sirdaşına.**
**Qibləm, səcdəgahım deyirəm ona,**
**Şöhrətə sığmayan anadır, ana!**

**Mirzamin MUXTAROV,**
***Yoluxucu xəstəliklər kafedrasının dosenti***

# Dəyərli alimin xatirəsi onu tanıyanların yaddaşından silinməyəcək

**Azərbaycan tibb elminə ağır itki üz verib. Azərbaycan Tibb Universitetinin Bioloji kimya kafedrasının dosenti, tibb elmləri namizədi Mehman Quliyev uzun sürən xəstəlikdən sonra vəfat edib.**

Mehman Rüstəm oğlu Quliyev 1959-cu ildə Gəncə şəhərində anadan olub. O, orta təhsilini şəhərdəki 18 saylı orta məktəbdə alıb, 1977-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Tibbi profilaktika fakültəsinə daxil olub. 1983-ci ildə ali təhsilini başa vuran M.Quliyev 1987-ci ilə qədər Quba, Göygöl və Gəncə şəhərlərində praktik səhiyyə sahəsində çalışıb. Lakin elmə olan həvəsi onu heç vaxt tərk etməyib və 1987-ci ildə uğurla imtahan verərək, ATU-nun Biokimya kafedrası üzrə aspiranturaya daxil olub, 1993-cü ildə isə dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülüb. O, müxtəlif illərdə ATU-nun Bioloji kimya kafedrasında assistent (1991-1994), baş müəllim (1994-1995) vəzifələrində çalışıb, 1996-cı ildə isə kafedranın dosenti vəzifəsinə seçilib. 2022-ci ildən Bioloji kimya kafedrası üzrə Elmi-Tədqiqat Laboratoriyasının müdiri vəzifəsində işləyib.

M.Quliyev universitetdə işlədiyi müddət ərzində özünü daim yüksək ixtisaslı mütəxəssis kimi göstərib, doğma kollektivin və sevimli tələbələrinin dərin hörmətini qazanıb. Universitetimizdə az adam tapılar ki, Mehman müəllimin dəyərli məsləhətlərindən yararlanmamış olsun. O hər zaman öz peşə hazırlığını artırmağa çalışaraq, yeni elmi-tədqiqat metodlarının hazırlanmasında və tətbiqində fəallıq göstərərdi. Dosent M.Quliyev kafedrada və universitetdə keçirilən bütün tədbirlərdə fəal iştirak edir, həmçinin ictimai işlərdə səylə çalışırdı. Son illərdə Mehman müəllim ATU-nun nəzdində fəaliyyət göstərən E.D. 2.07 Dissertasiya Şurasının, Azərbaycan Biokimyaçılar və Molekulyar Bioloqlar Cəmiyyətinin üzvi, Dövlət İmtahan Mərkəzinin və AR Prezidenti yanında Elmin İnkişafı Fondunun ekspert idi.

Mehman müəllim 130-dan artıq elmi əsərin, o cümlədən bir neçə tədris-metodik vəsaitin müəllifidir. O, dəfələrlə keçmiş SSRİ-də və Azərbaycanda keçirilən elmi konfransların iştirakçısı olub və tibbi biokimyanın aktual problemlərinə dair məruzələrlə çıxış edib. Dərin biliyi, yüksək erudisiyası, təkrarolunmaz pedaqoji ustalığı, eləcə də iş yoldaşları və tələbələrinə qarşı səmimi qayğıkeşliyi ilə seçilən Mehman müəllimin xatirəsi onu tanıyanların və həmkarlarının yaddaşından heç vaxt silinməyəcək.



**Allah rəhmət eləsin!**

*Bioloji kimya kafedrasının əməkdaşları*

**Allah rəhmət eləsin!**

I Mamalıq və ginekologiya kafedrasının əməkdaşları kafedranın dosenti Mina Qaraşovaya əzizi **Ayxan Qasımovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşları kafedranın assistenti Aqil Musayevə əmisi **Sabir Musayevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0004
Sayı 800